# Azərbaycan Dövlət Neft və Sənaye Universitetində "Son səfər" uğurlanması

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) "Azİİ e-kitab evi"ndə Milli Məclisin deputatı, yazıçı-dramaturq, sözügedən universitetin "Neftin, qazın nəqli və saxlanması" kafedrasının müdiri, texnika elmləri doktoru, professor Hüseynbala Mirələmovun dahi şair İmadəddin Nəsiminin həyatından bəhs edən yenicə işıq üzü görmüş "Son səfər" kitabının müzakirəsi keçirilib. Görüşdə həmçinin yazıçının kitab evinin bazasına təqdim etdiyi nəşrlərin təqdimatı keçirilib.

"Azİİ e-kitab evi"nin direktoru Səlahət Mahmudova kitab evi haqqında məlumat verərək burada yazıçı Hüseynbala Mirələmovla yaradıcı görüşün keçirilməsindən məmnunluğunu ifadə edib.

Milli Məclisin deputatı, akademik Nizami Cəfərov çıxışında Hüseynbala Mirələmovun yazıçı dilini onun bədii təfəkkürünün zənginliyinin təbii göstəricisi kimi qiymətləndirib. Hüseynbala Mirələmovu müasir Azərbaycan ədəbiyyatının ən parlaq, ən məhsuldar simalarından biri kimi səciyyələndirən akademik onun hekayə, povest, roman, dramaturgiya və publisistikasında qaldırılan kifayət qədər ciddi sosial- mənəvi problemlərin yalnız Azərbaycanda deyil, əsərlərinin tərcümə olunub yayıldığı ölkələrdə də böyük maraq doğurduğunu, Azərbaycan ədəbiyyatı, ədəbi- ictimai təfəkkürünün səviyyəsi barədə aydın

təsəvvür yaratdığını vurğulayıb: “Ümumiyyətlə, hansı mövzuda yazmasından asılı olmayaraq Hüseynbala Mirələmovun yaradıcılığının əsas qayəsini bugünün insanı, onun düşdüyü mürəkkəb sosial- psixoloji vəziyyətlər və ondan optimal çıxış yollarının axtarılıb tapılması təşkil edir. Hüseynbala Mirələmov əlinə qələm alandan bəri yazdıqlarının həqiqət olduğuna ürəkdən inanıb, bir şey düşünüb başqa şey yazmayıb. Onun yaradıcılığının mühüm xüsusiyyətləri humanizmi və mütəfəkkir məsuliyyətidir. Hüseynbala Mirələmov yaradıcılığında müasir olduğu qədər məsuliyyətli, məsuliyyətli olduğu qədər humanist sənətkardır. O, ən «mənfi» qəhrəmanının belə təbiətindəki insani keyfiyyətləri görür, qiymətləndirir, «qətran qaranlığı»ndakı kiçik bir işıq cücərtisinin parlamasına, yatmış vicdanın oyanmasına, solmaqda olan hisslərin çiçəklənməsinə elə ehtirasla çalışır ki, bunu ancaq böyük ürək sahibləri bacara bilər.

Hüseynbala Mirələmovun bədii dilində aydın cizgiləri ilə seçilən publisistik məqamlar, bədii intonasiyasında publisistik notlar olduğu kimi publisistik dilində də güclü (və təbii!) bir bədiilik mövcuddur. Hüseynbala Mirələmovun qəhrəmanları öz hisslərini, düşüncələrini daha çox daxili mükalimələrlə ifadə edirlər. Hüseynbala Mirələmovun təsvir- təfərrütlarında bir ssenari (rejissor) dəqiqliyi, konkretliyi müşahidə edilir. Hətta tarixdən yazanda da hadisələri bugünkü əyaniliyilə «görür»…”

Nizami Cəfərov Hüseynbala Mirələmovun görkəmli adamların həyatı seriyasından olan JZL janrında Ulu Öndər Heydər Əliyev, görkəmli oftalmoloq alim Zərifə xanım Əliyeva, Prezident İlham Əliyev haqqında qələmə aldığı qiymətli əsərlərin Azərbaycan

ədəbiyyatında xüsusi yeri və özünəməxsus sanbalı olduğunu qeyd edib.

Akademik Nizami Cəfərov yazıçının bu yaxınlarda işıq üzü görmüş “Son səfər” kitabının bədii məziyyətlərindən danışaraq sözügedən əsəri İsa Muğannanın “Məhşər” romanından sonra ən gözəl bədii əsər kimi dəyərləndirib.

ADNSU-nun Azərbaycan dili kafedrasının müdiri, professor Rüstəm Kamal bildirib ki, “Son səfər” əsərində diqqəti çəkən əsas məqamlardan biri İmadəddin Nəsiminin ilk dəfə olaraq ailə atmosferində bədii təqdimatıdır: “Son səfər”i nəsr kimi yox, poema kimi oxudum. Əsərdə dialoqlar və təsvirlər o qədər canlı və oxunaqlıdır ki... “Son səfər”də biz Nəsimini biz ilk dəfə canlı insan kimi görürük. Yaxşı olardı ki, rejissorlarımız film çəkərkən müasir yazıçılarımızın, o cümlədən Hüseynbala Mirələmovun yaradıcılığına müraciət etsinlər. Yeri gəlmişkən, “Son səfər” əsəri əsasında çox gözəl bir ekran əsəri ərsəyə gətirmək olar.

Hüseynbala Mirələmov ədəbiyyatımızda mövzu strateqi ola bilən tək-tük yazıçılardandır. O nədən yazıbsa, hamısı aktualdır, gündəmdir. Hüseynbala Mirələmov ailə -məişət atmosferini çox gözəl qələmə alan az –az yazıçılarımızdan biridir. Azərbaycan ədəbiyyatında ailə romanları azdır. Ədəbiyyatımızda kifayət qədər kolxoz romanları var, həmin romanlarda ailə kolxozun qanunlarına tabedir. Hüseynbala Mirələmovun əksər əsərləri isə sırf ailə dəyərlərini ön plana çıxaran əsərlərdir. Türkiyədə ailə romanları əsasında dəyərli seriallar çəkilr. İstərdim ki, Azərbaycanda da belə bir ənənə formalaşsın. Hüseynbala Mirələmovun bütün əsərlərinin, o cümlədən də “Son səfər” povestinin dili çox xoşuma gəlir. Bu əsərlərin dili orta statistik oxucudan tutmuş akademik

ədəbiyyatçıya qədər hamının başa düşəcəyi məqbul, axıcı bir Azərbaycan dilidir.

Hüseynbala Mirələmov daim mütaliə edən, mütəmadi olaraq dövri mətbuatı izləyən və ədəbi cameədə nə baş verdiyini əla bilən yazıçıdır. Sonda isə bunu xüsusilə qeyd etmək istəyirəm ki yazıçı Hüseynbala Mirələmov təkcə ədəbiyyatımızı deyil, dövlətimizi, dövlətçiliyimizi və Prezidentimizi sevən çox dəyərli bir şəxsiyyətdir".

ADNSU-nun professoru Sevinc Məmmədxanova çıxışında bildirib ki, Hüseynbala Mirələmovun əsərlərini daim mütaliə edir, xüsusilə də "Son səfər"i böyük zövq alaraq oxuyub: " Yazıçının dediyi kimi, əsərdə Nəsiminin Şamaxıdan qalib kimi ayrılması oxucunun yaddaşında dərin izlər buraxır.

Hüseynbala Mirələmov həm də ali şəxsiyyət cizgiləri ilə fərqlənən insandır, çox dəyərli alimdir. Anadolu türklərinin təbirincə desək, adam kimi adamdır".

"Son səfər" kitabının bədii redaktoru Sevinc Mürvətqızı sözügedən əsərin redaktəsinə böyük məsuliyyətlə yanaşdığını diqqətə çatdırıb: "Redaktə prosesi zamanı müşahidə etdiyim maraqlı bir məqam yazıçı Hüseynbala Mirələmovun öz əsərlərində az qala hər bir kəlməyə nə qədər məsuliyyətlə, duyum və sevgiylə yanaşması idi. Əsərdə bəzən hansısa sözün yerinə düşüb-düşməməsi, hansısa cümlənin mətnə oturub - oturmaması ilə bağlı fikir mübadiləsi aparırdıq və hansısa ifadənin dəyişdirilməsi üçün yazıçı həssaslıq və məsuliyyət hissilə bəzən gün ərzində dəfələrlə zəng edirdi. Hüseynbala Mirələmov daim vurğulayırdı ki, əsərdə hər məqam, hər detal, hər nüans Nəsiminin ölməz ruhuna layiq olmalıdır.

Hüseynbala Mirələmov həm də yaradıcı intuisiyaya malik yazıçıdır. 2018-ci ildə ədəbi söhbətlərimiz zamanı yazıçı tez-tez İmaddədin Nəsiminin həyat yolundan bəhs edən povest

üzərində işlədiyindən söz açırdı. Prezident İlham Əliyev müvafiq Sərəncamla 2019-cu ili ölkəmizdə “Nəsimi ili” elan edəndə yazıçının buna görə hədsiz sevindiyinin şahidi oldum və bu, onun özünün qeyd etdiyi kimi, sanki ziyalı intuisiyasının, yazıçı fəhminin Nəsimi yaradıcılığı ilə dərin ruhani bağlantısının göstəricisi idi.”

Sevinc Mürvətqızı “Son səfər”in ümumi ruhuna povestin adına da uyğun olaraq böyük bir nisgilin hakim kəsildiyini bildirərək burada Nəsiminin digər əsərlərdəki Nəsimi obrazlarından fərqli olaraq sevən-sevilən, qardaşı Şahxəndan vasitəsilə sevdiyinə üzük göndərib əhd alan, eləcə də cahil insanlar tərəfindən evi daşlanan real bir şəxs kimi oxucunun qarşısına çıxdığını deyib.

Kitabın bədii tərtibatı haqqında danışan Sevinc Mürvətqızı əsər çapa hazırlanarkən yazıçının bu məsələlərə də həssaslqla yanaşdığını, kitabın şriftlərindən tutmuş, üz qabığının və illüstrasiyaların seçiminə qədər Nəsimi dövrünün ruhuna uyumlu olması üçün xüsusi diqqət göstərdiyini qeyd edib.

Universitetin Azərbaycan dili kafedrasının baş müəllimi Könül Abdullayeva “Son səfər”in birnəfəsə oxunduğunu, oxucuya zəngin təəssürat bağışladığını və uzun müddət əsərin təsirində qaldığını bildirib.
Tələbələr Nicat Azayev, Ülkər Ələsgərova da çıxış edərək Hüseynbala Mirələmovun bədii yaradıcılığından söz açıb və gəncləri yazıçının yaradıcılığından bəhrələnməyə çağırıblar.

Sonda Hüseynbala Mirələmov tədbirdə iştirak edən hər kəsə minnətdarlığını bildirib və ünvanına deyilən xoş sözləri gələcək yaradıcılığı üçün avans kimi qəbul etdiyini, hazırda üzərində çalışdığı “İki şah, iki sultan” əsərinin yekunlaşmaq üzrə olduğunu vurğulayıb .

Xatırladaq ki, yazıçı-dramaturq Hüseynbala Mirələmov müəllifi olduğu 11 adda 33 nüsxə bədii kitabı “Azİİ e-kitab evi”nə hədiyyə edib. Kitab evinin oxucu zalında H. Mirələmovun təqdim etdiyi həmin kitablardan ibarət sərgi də təşkil olunub və sərgidə yer alan nəşrlər oxucuların açıq istifadəsinə verilib.

Aydan ŞƏRİF